**NAİLƏ YUSİFOVA**
**filologiya üzrə fəlsəfə doktoru**
**Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)**
**nailayusifova@yahoo.com**

# AZƏRBAYCAN TOPONİMLƏRİNDƏ TÜRK MƏNŞƏLİ PALEOORONİMLƏR

## XÜLASƏ

Azərbaycanda düzənliklər və vadilər yaşayış üçün daha yaxşı şəraitə malik olduğuna baxmayaraq, arxeoloji qazıntılar göstərir ki, ulu əcdadlarımız dağlıq əraziyə də üstünlük vermişlər.Bu bir tərəfdən həm qonşu, həm də yadelli tayfaların qəfil basqınlarından qorunmaq, digər tərəfdən əkinçiliklə yanaşı maldarlığı inkişaf etdirmək üçün dağlıq ərazilərin üstünlükləri ilə bağlı olmuşdur.Qədim və arxeoloji cəhətdən çoxtəbəqəli yaşayış məskənlərinin əsasən dağlıq yerlərdə aşkarlanması bununla izah olunur.Ona görə də qədim Daş dövründən başlayaraq tayfalar və etnoslar bir-birini əvəz etdikcə dağlıq ərazilərin-oronimlərin dil mənsubiyyəti dəyişmişdir.Odur ki, onlara advermə prosesi də min illər boyu davam etmişdir.Bu baxımdan da Azərbaycanın indiki oronimiyasının yaranma və formalaşma tarixi müəmmalıdır.Lakin onlar mədəni irsimizin tərkib hissəsi olmaq etibarilə xalqımızın özü qədər qədimdir.

Elmi-texniki tərəqqinin inkişafı ilə əlaqədar olaraq hazırda oroqrafik obyektlərin dəqiq müəyyənləşdirilməsinin həlli həmin obyektlərin dərketmə parametrlərini (bu və ya digər relyef formasının suvarma,əkinçilik,maldarlıq və balıqçılıq üçün istifadə olunmasının məqsədəuyğunluğunun müəyyənləşdirilməsi, yolların çəkilməsi və s.) genişləndirsə də ulu əcdadlarımızın müxtəlif relyef formasına verdiyi adlar praktiki əhəmiyyətini saxlamaqdadır.Onu da qeyd edək ki, oronimlər Azərbaycanda əhalinin əksəriyyətini təşkil edən türkdilli azərbaycanlıların və müxtəlif Dağıstandilli (udinlər, avarlar, saxurlar, ləzgilər, xınalıqlar və s.) və İrandilli (talışlar, tatlar və kürdlər) azsaylı xalqların dilində leksik vahidlərdən ibarət olduqlarına görə xalqımızın müxtəlif tarixi dövrlərdə etnik təşkili məsələlərinin araşdırılması üçün mənbə roluna malikdir.Bununla əlaqədar olaraq xüsusi ilə qeyd etmək lazımdır ki, ermənilərin Azərbaycana qarşı ərazi iddiasının əsassızlığını göstərən faktlardan biri də məhz oronimlərdir.Azərbaycan ərazisində,o cümlədən,Dağlıq Qarabağda erməni dili əsasında yaranmış bir dənə də olsa belə, oronim-dağ adı yoxdur.Azərbaycan oronimiyasının dil mənsubiyyətinə görə təsnifatı nəticəsində, Türk fonunun üstün mövqeyə malik olması tam təfərrüatı ilə sübut olunmuşdur.Qeyd etmək lazımdır ki, son iki min il ərzində Azərbaycan xalqının təşəkkülü və formalaşmasında iştirak etmiş türk mənşəli tayfa ittifaqlarının (Albanlar, Qıpçaqlar, Oğuzlar, Peçeneqlər, Saklar, Xəzərlər, Hunlar və s.) və onların tərkibində olmuş tayfaların əksəriyyətinin adları məhz makrooronimlərdə əksini tapmışdır. Azərbaycan dilində və onun dialektlərində məlum olmayan bir sıra qədim türk sözləri də oronimlərdə daşlaşıb qalmışdır.Bunları tədqiq edib üzə çıxarmaq xalqımızın tarixini müəyyənləşdirməkdə mühüm addım atmaq deməkdir. (2, 676 s) Biz bu qısa məlumatdan sonra faktlar əsasında paleooronimləri, onların yaranmasında əsas rol oynayan, mənaları dəqiq olmayan onomastik vahidləri müəyyənləşdirməyə çalışacağıq.

**Açar sözlər**: toponim, paleooronim, qədim türk, tədqiqat, müşahidə

İnsanlar məskunlaşdığı ərazilərdə müxtəlif təsərrüfat sahələri (əkinçilik, maldarlıq, ovçuluq və s.) ilə əlaqədar olaraq relyefin oxşar və fərqli cəhətlərini müəyyənləşdirir və onların hər birinə öz dilində adlar verir. Bu dərketmədə insanlar əkinə və maldarlığa yararlı torpaqları,

meşə, bağlıq, biçənəklik, içməli və müalicəvi sular çıxan yerləri, uçurumlu, qayalı, şoran və başqa obyektləri bir-birindən fərqləndirməklə sonrakı tarixi inkişaf prosesində həmin oroqrafik obyektlərdə yerləşən faydalı sərvətlərə də öz münasibətlərini bildirir, bununla da yaşadığı ərazinin bölgələrini mənimsəyir və onlar haqqında tam təsəvvürə malik olur ( 3, 129 s).

Azərbaycanda düzənliklər və vadilər yaşayış üçün daha yaxşı şəraitə malik olduğuna baxmayaraq, arxeoloji qazıntılar göstərir ki, ulu əcdadlarımız dağlıq əraziyə də üstünlük vermişlər. Bu bir tərəfdən həm qonşu, həm də yadelli tayfaların qəfil basqınlarından qorunmaq digər tərəfdən əkinçiliklə yanaşı daha intensiv təsərrüfat sahəsi olan maldarlığı inkişaf etdirmək üçün dağlıq ərazilərin üstünlükləri ilə bağlı olmuşdur. Qədim və arxeoloji cəhətdən çox təbəqəli yaşayış məskənlərinin əsasən dağlıq yerlərdə aşkarlanması bununla izah olunur. Ona görə də qədim Daş dövründən başlayaraq tayfalar və etnoslar bir-birini əvəz etdikcə dağlıq ərazilərin-oronimlərin dil məsuliyyəti dəyişmiş və onlara müsbət və ya mənfi relyef formalarına ad vermə prosesi də min illər boyu davam etmişdir. Bu baxımdan da Azərbaycanın indiki oronimiyasının yaranma və formalaşma tarixi məlum deyil. Lakin onlar mədəni irsimizin tərkib hissəi olmaq etibarilə xalqımızın özü qədər qədimdir.

Elmi-texniki tərəqqinin inkişafı ilə əlaqədar olaraq hazırda oroqrafik obyektlərin dəqiq müəyyənləşdirilməsinin həlli həmin obyektlərin dərketmə parametrlərini (bu və ya digər relyef formasının suvarma, əkinçilik, maldarlıq və balıqçılıq üçün istifadə olunmasının məqsədəuyğunluğunun müəyyənləşdirilməsi, yolların çəkilməsi və s.) genişləndirsə də ulu əcdadlarımızın müxtəlif relyef formasına verdiyi adlar praktiki əhəmiyyətini saxlamaqdadır. Onu da qeyd edək ki, Oronimlər Azərbaycanda əhalinin əksəriyyətini təşkil edən türkdilli azərbaycanlıların və müxtəlif Dağıstandilli (udinlər, avarlar, saxurlar, ləzgilər, xınalıqlar, qırızlər, buduqlular və s.) və İrandilli (talışlar, tatlar və kürdlər) azsaylı xalqların dilində leksik vahidlərdən ibarət olduqlarına görə xalqımızın müxtəlif tarixi dövrlərdə etnik təşkili məsələlərinin araşdırılması üçün mənbə roluna malikdir. Bununla əlaqədar olaraq xüsusi ilə qeyd etmək lazımdır ki, ermənilərin Azarbaycana qarşı ərazi iddiasının əsassızlığını göstərən faktlardan biri də məhz oronimlərdir. Azərbaycan ərazisində, o cümlədən, Dağlıq Qarabağda erməni dili əsasında yaranmış bir dənə də olsa belə, oronim-dağ adı, dağ yoxdur. Azərbaycan oronimiyasının dil mənsubiyyətinə görə təsnifatı nəticəsində Türk fonunun üstün mövqeyə malik olması tam təsərrüfatı ilə sübut olunmuşdur. Qeyd etmək lazımdır ki, son iki min il ərzində Azərbaycan xalqının təşəkkülündə və formalaşmasında iştirak etmiş türk mənşəli tayfa ittifaqlarının (Albanlar, Qıpçaqlar, üğuzlar, Peçeneqlər, Saklar, Suvarlar, Xəzərlər, Hunlar və s.) və onların tərkibində olmuş tayfaların əksəriyyətinin adları məhz makrooronimlərdə əksini tapmışdır. Azərbaycan dilində və onun dialektlərində məlum olmayan bir sıra qədim türk sözləri də oronimlərdə daşlaşıb qalmışdır. Bunları tədqiq edib üzə çıxarmaq xalqımızın tarixini müəyyənləşdirməkdə mühüm addım atmaq deməkdir. Biz bu qısa məlumatdan sonra faktlar əsasında paleooronimləri, onların yaranmasında əsas rol oynayan, mənaları dəqiq olmayan onomastik vahidləri müəyyənləşdirməyə çalışacağıq.

Azərbaycan paleotoponimiyası qədim türk leksik semantik elementləri ilə zəngindir. Belə leksik vahidlərin müxtəlif növ obyekt adlarının tərkibində mühafizə etdikləri arxaik məna çalarlarını isə həm qədim türk abidələri və qohum türk dilləri materialları əsasında, həm də coğrafi obyektin özünün bilavasitə müəyyən səciyyəsi cəhətlərini nəzərə almaqla müəyyənləşdirmək, bərpa etmək mümkündür. Deməli, dilçilik baxımdan xüsusi əhəmiyyət kəsb edən və ayrıca tədqiqata ehtiyacı olan belə bir məsələnin həllində ilk növbədə etimoloji metoda əsaslanmaq lazımdır. Bu baxımdan Azərbaycan toponomik sisteminə daxil olan külli miqdarda toponim və makrotoponimlərin (oykonim, oronim və hidronimlərin) birinci komponentləri yerində işlənən ağ, qara və sarı sözləri diqqəti xüsusilə cəlb edir. Belə ki, göstərilən leksik vahidlərin yüzlərlə coğrafi adın tərkibində təkcə rəng mənasında deyil, bir sıra başqa arxaik

mənalarda işləndiyi də aydınlaşdırılmışdır. Faktlar göstərir ki, həmin vahidlər iki və çox komponentli yer adlarının yalnız iki komponenti yerində işlənərək, adlarını daşıdıqları müxtəlif obyekt növlərinin yerləşdiyi sahəsinin həcmini, böyük və ya kiçikliyini, hündür və ya alçaqlığını, dərin və ya dayazlığını, obyekt süxurlarının rəngini, suyun keyfiyyətini və s. müəyyənləşdirmək vəzifəsini yerinə yetirir. Bir sözlə, göstərilən topokomponentlər bir sıra yer adlarında müasir Azərbaycan dili və onun dialekt və şivələri üçün səciyyəvi olan rəng mənasında işləndiyi halda, böyük bir qrup coğrafi adlarda isə arxaik sayılan, bəzən isə yalnız daşlaşmış ifadələrin tərkibində saxlanan bir sıra başqa mənalar da daşıyır.

Bundan başqa türk tayfalarının dillərində relyefin ən xırda elementlərini ifadə edən sözlər - coğrafi terminlər vardır. Məsələn, türk dillərində ümumiyyətlə, müsbət relyef formalarının adları kimi dağ (tağ) və too (tuu) taxta və təpə sözləri ilə yanaşı, həmin bu obyektlərin xırda hissələrinin adlarını bildirən aduş, alaşar, aran, art, bair, bay barmak, bet, bək, buqurt, (buxur, boğur), buxo, burqa, kapak, qəşəd, qız, ik, ir, yazı, kəpəz, kotal, gömür, güdür, şal, sarp, səngir, tap, tac, tey, ton, tumb, çal, çan, çat, çinq, şulun və b. (1, 299 səh) sözlər də vardır. Azərbaycan dilində bu sözlərin çoxu yoxdur, lakin dağ, təpə, qayıq və b. oroqrafik obyekt adlarında həmin sözlərin demək olar ki, hamısı daşlaşıb qalmışdır. Bunların bəzilərini nəzərdən keçirmək məqsədəuyğun olardı. Qədim türk dillərində suvarıla bilməyən yüksəklik adur (adir) adlanırdı. Quba rayonundakı Adur kəndi də məhz dağlıq massivdə yerləşir. Deməli, kənd adı coğrafi relyefin xüsusiyyəti təpəlik yaylada yerləşməsi ilə əlaqədardır. Həqiqətən də türk dillərində adur «təpəlik», «dağlıq yer», «dağ ətəyi» mənasındadır. Bəzi türk dillərində bay (bəy) «varlı», «feodal» mənasındadır. Azərbaycandakı bəzi oronimlərdəki, yəni dağ adlarında «bay» məhz həmin sözlə mənşə birliyinə malikdir. Şərur rayonundakı axura kəndindən şimalda yerlləşən Baysal dağının adında «bay» sözü qədim mənasını saxlamışdır. Dəvəçi rayonunda qeydə alınan Baybeham dağı adında da «bay» sözü iştirak edir. Respublikamızdakı Baytal dəvəsi (Zəngilan rayonu) Baytalıq dağı (Şuşa rayonu), Baytallı dağı (Daşkəsən rayonu), Baytəpə dağı (Füzuli rayonu), Bayqara dərəsi (Laçın rayonu), Bayağa dağı (Zaqatala rayonu), Baydərə (Lerik rayonu), Baylik dərəsi (Tərtər rayonu) və s. Qəşəd dağı, Qəşəd təpəsi, Qəşəd dərəsi, Qəşəd yamacı (Ağsu rayonu) Qaşadçal dağı (Qazax rayonu) oronimlərinin tərkibindəki Qəşəd sözü türk dillərində qajat «dağ beli», «daşın qaşı», «yüksəklik» mənasındadır.

Azərbaycan oronimiyasında rast gəlinən yazı sözü qədim türk dillərində çay və dəniz kənarı «çöl», «düzən» mənasındadır. Ağyazı və Qarayazı (Qubadlı rayonu), Ağyazı, yazı düzü (Zəngilan rayonu), Ağyazı çölü (Zaqatala rayon Ağyazı çölü, Ağyazı təpəsi (Laçın rayonu), Qarayazı çölü (Qazax rayonu), yazı çalası (üğuz rayonu), Acayazı dağı (Laçın rayonu və s. toponimik adlardakı yazı sözü qədim xalq coğrafiya terminlərdən biri olmaqla bir çox türk dillərində indi də işlənir(4,32).. Çərtəyəz coğrafi adı qədim türk dillərindəki çərt «hiss», «parça» və yazı «düzən» sözlərindən ibarət olmaqla düzün bir hissəsi mənasını verir

Tonq termini də müasir baxımdan çox maraq doğurur. Tonq qədim türk dillərində (təhlil etdiyimiz sözlər Drevnitürkskiy slovardan götürülmüşdür) təpə, «təpəcik, yer» anlayışını ifadə edir. Bir çox oroqrafik obyekt adlarında hələ də öz adını saxlamaqdadır: Tonq dərəsi (Lerik rayonu), Tonq Finli dağı (Zəngilan rayonu), Tonq dərəsi, Tonq təpə (Culfa rayonu), Tunq təpə - Tonq təpə (Gədəbəy rayonu), Tonq təpəsi (Astara rayonu) və s.

N. Məmmədovun maraqlı bir fikrini də qeyd etmək istərdik. O, yazır: «Qədim türk dillərində sıldırım, alınmaz qaya, uçurum və s. mənalarda olan çınq sözü Alacaxi dağ adında (Qazax rayonu) və təhrif olunmuş formada Qapıcıq zirvəsi (Ordubad rayonu) dağ adlarında qalmışdır. Aydındır ki, adları çəkilən oronimlərin adı qədim türk dillərində qapı - «keçidi» sözündən ibarət oduğuna görə «cıq» şəkilçisi heç də kiçiltmə bildirə bilməz. Bizcə, Qapıcıq oronimindəki «cıq» komponenti məhz - çinq sözündən ibarətdir. Çinq termini ilə Ordubad rayonunda Çin dağ, Şəki rayonundakı Çanqalar (Əsli Çinqalar), Lerikdəki Çanqular (Əsli

Çinqular) və başqa dağ adlarında əks olunmuşdur. Burada ancaq müəllif qapı-keçid sözünün mənasına görə «çınq» sözünün kiçiltmə məna bildirməsini inkar edir(5,32).

Türk mənşəli sözlərin digər bir cəhəti də ondan ibarətdir ki, bu terminlər türk dünyası ölkələri xalqlarının dillərində işləndiyindən daha çox məna çalarlarına malikdir. Məsələn, «buk» termini - «ensiz dağ vadisi; «dar yarğan», «çay sahilində düzənlik yer», «dağ çalası», «dağ çuxuru», «təpə», «yüksəklik» və s. mənalarında işlənir.

### Ədəbiyyat

1.Azərbaycan toponimlərinin ensiklopedik lüğəti, 2 cilddə, I cild, Bakı, "Şərq-Qərb" nəşriyyatı, 2007, 299 s.
2.Drevnetyurkskiy slovar Leninqrad, 1969, 676 s.
3.Kaşğari M. Divanı lüğəti -İT-Türk Tərcüməsi (çevirən Besim Atalay), I-III c., Ankara, 1939-1941, s. 129.
4.Q.Məşədiyev Azərbaycan toponimlərinin tarixi-linqvistik təhlili. Bakı, "Nurlan" 2007, s. 32
5.Məmmədov N. Azərbaycan Respublikasının oronimləri, "Bakı Dövlət Universiteti" nəşriyyatı 1999, 302 s.

Н.Юсифова

Тюркоязичние оронимы в топонимах Азербайджана

Резюме

Археологические раскопки показывают, что наши предки предпочитали горные участки для проживания, хотя в долинах и равнинах Азербайджана для этого имелись хорошие условия. Это была связано с защитой от внезапных налетов чужеземцев с одной стороны, и с другой преимуществами горных участков для развития скотоводства наряду с земледелием. Этим же обусловливается и обнаружение многослойных с точки зрения древности и археологии населенных пунктов.Поэтому языковые происхождение горных участков – оронимов стали изменятся по мере заменимости друг друга этносов и племен, таким же образом тысячелетиями продолжался процесс их именования.С этого аспекта история создания и формирования сегодняшней оронимии Азербайджана неизвестна. Однако они как часть нашего культурного наследия имеют такие же древние корни как сам наш народ.

В настоящее время в связи с развитием научно-технического прогресса параметры осознания орографических объектов расширяются решением точного установления данных объектов (определение целесообразности той или иной формы рельефа для применения в земледелии, скотоводстве, поливе и рыбоводстве, прокладывание дорог),однако названия разных форм рельефа нашими древними прадедами сохраняют свою практическую значимость.Следует еще отметить,что оронимы играют роль источника для изучения вопросов этнического состава нашего народа в разные исторические этапы в связи с тем, что оронимы состоят из лексических единиц на языках тюркоязычных азербайджанцев, составляющих большинство населения Азербайджана, а также разных малых народов дагестаноязычных (удины, авары, сахуры, лезгинцы, хыналийцы) и ираноязычных (талыши, таты и курды). В связи с этим следует особо отметить, что именно оронимы являются одним из фактов, доказывающих необоснованности территориальной претензии армян Азербайджану.На территории Азербайджана, в частности в Нагорном Карабахе нет ни единого оронима – названия горы, созданного на основании

армянского языка. Детально доказано преимущественная позиция трюкского фона в результатах классификации азербайджанской оронимии по языковому происхождению.Следует отметить, что в течение последних двух тысячелетий названия племенных союзов тюркского происхождения (албанцы,кыпчаги,огузы,печенеги,саки,хазары,гунны),участвующих в формировании и росте азербайджанского народа и большинства племен в их составе нашли свои отражения именно в макрооронимах.Некоторые древние тюркские слова, неизвестные на азербайджанском языке и его диалектах увековечены в оронимах. Их исследование и выявление на свет означает важный шаг в установлении истории нашего народаПосле данного короткого обзора мы постараемся определить палеоронимов на основе фактов, а также ономастические единицы, сыгравшие основную роль в их появлении и смыслы которых еще не уточнены.

**Ключевыеслова**:топоним,палеооронoим, древнетюркский, исследование, наблюдение

**N.Yusifova**

**Turkic positions in the toponym of Azerbaijan**

**Summary**

Though in Azerbaijan the plains and low-lands had much better conditions for to live, archaeological excavations discover that our ancient ancestors preferred to live in upland territories. It was related from one side in order to be protected from the sudden attacks of the foreign tribes, from other side the superiority of the mountainous lands to develop cattle-breeding alongside with tillage. We know that multilevel dwellings of life from ancient and archaeological view point are mostly discovered in the upland territories. The reason of it is explained from above mentioned matters. That was why starting from the Stone Age while the tribes and ethnic groups substituted one another, the language belonging of the upland territories - oronyms also changed. The process of giving names to those lands lasted for thousand years. From this point of view the origin and formation history of the oronymy of the present Azerbaijan is unknown. But they are as ancient as our people for being a part of our cultural heritage.

Related with the development of scientific- technical progress at present time the solution of exact defining of the orographic objects broadened the understanding parameters ( to define where this or other relief form is suitable for tillage, fishing, cattle-breeding or not, to build roads) the names that our ancestors gave to different relief forms have still kept their practical importance. It is necessary to note that in Azerbaijan the oronyms contain of lexical unique in the language of Turkish speaking Azerbaijani who consist of the majority of the population and different Daghistan- speaking ( the Udins, the Avars, the Sakhurs, the Lezghins, the Khinaliqs, the Qirizs, the Buduqlular and etc) and Iranian-speaking ( the Talishs, the Tats and the Kurds) play the role of source while researching the ethnic formation of our people in different times. It must be emphasized that one of the facts that prove the groundlessness of the territorial claim of the Armenians against Azerbaijan is just oronyms. In the territory of Azerbaijan, including in Mountainous Qarabagh there is no oronym- the name of mountain that was formed on the base of the Armenian language. As a result of the classification of Azerbaijani oronymy according to the language belonging it was proved that Turkish background has superiority. It must be remarked that the names of the tribal unions ( the Albans, the Qipchaqs, the Ughuzs ,the Pecheneqs, the Suvars, Khazars, the Huns and etc) and the tribes in the structure of them who took part in the formation of the Azerbaijani people during the 2000 years have been

reflected in the macro-oronyms. Some ancient Turkish words which are unknown in Azerbaijani language and in its dialects also have been " turned to stone" and kept in the oronyms.

To discover them by researching means to take important step in defining the history of our people. After this short information we shall try to define the paleo- oronyms, and the onomastic units the meanings of which are unknown but played great role in the formation of the paleooronyms.

**Keywords**: toponyms, paleooronyms, ancient Turkic, research, observation

Redaksiyaya daxil olma tarixi: 29.06.2019
Çapa qəbul olunma tarixi: 09.08.2019
Filologiya elmləri doktoru, professor Qara Məşədiyev tərəfindən çapa tövsiyə olunmuşdur.